# Akılbek Şayaxmet-70

**Beynəlxalq Yaradıcılıq Akademiyasının müxbir-üzvü, Baytursınov adına Kostanay dövlət Universitetinin professoru, Qazaxsrtanın fəxri jurnalisti, Qazaxstanın mədəniyyət xadimi, Beynəlxalq Mahmud Kaşqari, Məhəmməd Heydər Dövləti və "Alaş" mükafatlarının laureatı**

*Qazaxstanda Azərbaycan ədəbiyyatının və mədəniyyətinin yorulmaz təbliğatçısı, görkəmli Qazax şairi və alimi AkılbekŞayaxmeti 70 illik yubileyi münasibəti ilə Əli Kərim adına Poeziya Klubunun üzvləri təbrik edir, neçə-neçə onillikləri fəth etməyi arzulayır.*

*Biz də "Türküstan"-qəzetinin "Art" səhifəsi olaraq təbriklərə qoşulur, hörmətli aydınımıza bundan sonrakı həyatında daişıqlı günlər diləyir, İbrahim İlyaslının tərcüməsində onun "Miniatürlər"ini oxuculara təqdim edirik.*

# Miniatürlər



### Saxtalıq farş kimi

***"Şahlar heç vaxt şairləri sevməyiblər. Şairlər həmişə şahlara nifrət ediblər" – Arran belə demişdir. Ancaq şairlər də iki növə ayrılırlar: bir qismi – saray şairləridir, qazaxlar onları "saray akınları" adlandırırlar, o biri qism – xalq şairləridir. Bəzən saray şairlərini də xalq şairi adlandırırlar, hansılar ki, bu ada hökümət qərarları ilə nail olurlar. Onlar mənə saxta əskinasları xatırladırlar. Saxtalıq farşa bənzəyir – xırdalandıqları üçün onların həqiqət və ya yalan olduğunu ayırd etmək çətin olur.***

### Projektor yazarlar

Dövlət büdcəsindən maariflənmə üçün milyardlarla vəsait ayrılır. Şəhərlərin işıqlandırılması üçün milyonlarla vəsait xərclənir. Anlaya bilmirəm, niyə əsil yazıçıların zəhməti də bu cür dəyərləndirilmir. Axı onlar da özlərini projektor kimi maariflənməyə və işıq saçmağa həsr edirlər.

### Rəsgsazlar və qafiyəpərdazlar

Çexiyada rəssamı rəngsaz, şairi isə qafiyəpərdaz adlandırırlar. Qrafomanlara yaraşan əsil ad elə budur! Doğrudan da, əsil rəssamlar çəkirlər, saxtalar isə kətan bulaşdırmaq və korlamaqla məşğuldurlar. Əsil şairlər şeir qoşurlar, saxtalar isə qafiyə cütləyirlər. Fərqlər də elə bundadır. Ancaq baş çıxarmaq çətindir. Yaxşı, bəs "yazıçı" sözü hansı anlama gəlir? Ərinməyən hər kəs yazır. Əsil yazıçıları necə ayırd edək? Bəlkə onlar üçün yeni bir ad düşünək?!

### Bütlər və idiotlar

Ölkəyə kənardan baxanda, şübhəsiz, bütləri və idiotları görmək olar. Allahsızlar Allahdan qorxmurlar, ancaq elə sifət alırlar ki, guya Yaradana sitayiş edirlər. Əsil həqiqətdə isə, onlar bütlərə sitayiş edirlər.

### Bilik və fəxri adlar

Ruscada bu iki sözü - bilik və Fəxri ad sözlərini fərqləndirən cəmi bircə hərf var – "znaniya" və "zvaniya". Bilik bizə lazımdır, fəxri adlar isə sizə. Bunu heç kim danmır. Fəxri adlar müxtəlif cür olur. Məsələn; Xalq –ancaq əksəriyyəti xalqın əlehinə gedənər; Əməkdar – ancaq əksəriyyəti əmək verməyənlər; Fəxri – ancaq sözdə fəxr olunacaqlar; Akademiklər – ancaq pul hesabına bu ada yiyələnənlər. Davam etməyin mənası yoxdur... Belə çıxır ki, Fəxri adlar çox, bunu haqq edənlər isə azdır.

### Dəvətlilər və seçilmişlər

İlk baxışdaca ayırd etmək olur ki, qonaqlar arasında dəvətlilər çox, seçilmişlər isə azdır. Seçilmişlər – xalqa sədaqətlə xidmət edənlər, dəvətlilər – fırıldaqçılardır.

Heç kimə sirr deyil ki, çobanlar əkinçilərlə ümumi dil tapa bilmədikləri kimi, oxuyanlar da yazarlarla ümumi dil tapa bilmirlər.

### Yalanşı vətənpərvərlik

***İnsanın ata adı olmaya bilər, ancaq Vətəni mütləq ki, var.(Otçestvo-Oteçestvo) Uşakovun lüğətinə görə bu adama cəmiyyət tərəfindən hörmət olunmalıdır. Bizdə elə adamlar var ki, onlar özləri üçün bu cür "fəxr" qururlar. Özü üçün, öz cibi və ya öz ailəsi üçün.***

Yaxın vaxtlarda mən rus dilində öz müşahidələrimi yazdığım bir kitab nəşr etdirdim. Məsələn; "Döyüşçü"(Boets) adlı Rusiya kanalı ilə göstərilən reportajda rinqə çıxan məşqçinin geyiminin kürək nahiyəsində belə yazılmışdı: "Biz ruslarıq. Allah bizimlədir". Buna baxınca mən bir dördlük yazdım:

**Rinqdə kürəyinə yazıb məşqçi,**
**"Biz ruslarıq, bizim ilədir Allah!"**
**Ancaq o uduzdu açıq və aşkar,**
**Allah heç köməyi olmadı, vallah!**

Bu cür vətənpərvərlik, yalançı vətənpərvərlikdir.

### Kaska və maska

Məlumdur ki, kaskanı əsgərlər zədələnməkdən, inşaatçılar isə bədbəxt hadisələrdən qorunmaq üçün geyinirlər. Motoskletçilər, velosipedçilər, xokkeyçilər kaskasız yarışlara qatılmırlar. Tankçıların şlemlərini, təyyarəçilərin skafandrlarını da kaska və maskaya bərabər tutmaq olar.

Karnavallarda maska ilə sifəti örtürlər, teatr və tibbdə də eynilə. Şamanlar da ayinlərini icra etmək üçün sifətlərini maska ilə örtürlər. İndi isə biz kaskanı polislərin başında görürük: belə çıxır ki, onlar küçədə sifətlərini vətəndaşlardan gizlədirlər. Maska ilə sifətlərini banditlər örtərlər ki, öz fizionimiyalarını zərərçəkənlərdən gizlətsinlər. Bəzi yaltaq adamlar görüşərkən gülümsəyirlər ki, öz alçaq niyyətlərini bu təbəssümün axasında gizlətsinlər.

Mənə elə gəlir ki, kaskanı dostlar, maskanı isə düşmənlər geyinirlər. İndi insanların çoxu kaskadan və maskadan istifadə edirlər. Bu taleni mənim də yaşayacağımı qətiyyətlə söyləmək çətindir.

***Düşünməyin ki, bu dik yamacın arxasında düşmən yoxdur. Qoy başınızda kaskanız olsun.***

***Düşünməyin ki, öz vətənizdə hamı sizin dostunuzdur. Qoy üzünüzdə maskanız olsun.***

### Bolt və qayka

Yaradan ilk əvvəl yer kürəsində qoşalıq prisipi ilə təbiəti və canlıları yaratdı. Bu qanun elə indi də qüvvədədir. Yür üzündəki bütün canlılar bu cür cütlüklər halında yaradılıblar. Tək çəkmə, tək əlcək olmur.

Cütlük tapılmadığı halda onu bir əvəz edən olur. Yalnız iynə ilə düyməni tikmək olmaz, çəkic olmasa mismarı çalmaq olmaz. Xokkeydə bunu şayba və xokkey çubuğu, bilyardda kiy və şar, tennisdə raketa və top icra edir. Bunlardan biri digərsiz heç nəyə yaramaz, birinin yoxluğunda oyun alınmaz.

Bütün qurğularda – suda, quruda, havada olan maşınlarda bolt və qaykanın xüsusi önəmi var. Əgər bolt və qayka ölçülərinə görə düzgün seçilərsə istənilən materialdan təhlükəsiz və etibarlı konstruksiya hazırlamaq olar. Bir müddət insanlar ancaq boltdan istifadə etməklə keçinsələr də, sonralar məlum olub ki, qaykasız o funksiyasını tamamlaya bilmir. Bəzi situasiyalarda insanlar həm xarakteri, həm də əməli etibarilə bu cütlüyə bənzəyirlər. Qarşılıqlı anlaşmadan, ümumi dil tapmaqdan gözəl nə ola bilər?

> **Bütün qurğularda – suda, quruda, havada olan maşınlarda bolt və qaykanın xüsusi önəmi var. Əgər bolt və qayka ölçülərinə görə düzgün seçilərsə istənilən materialdan təhlükəsiz və etibarlı konstruksiya hazırlamaq olar. Bir müddət insanlar ancaq boltdan istifadə etməklə keçinsələr də, sonralar məlum olub ki, qaykasız o funksiyasını tamamlaya bilmir. Bəzi situasiyalarda insanlar həm xarakteri, həm də əməli etibarilə bu cütlüyə bənzəyirlər. Qarşılıqlı anlaşmadan, ümumi dil tapmaqdan gözəl nə ola bilər?**

### Alqışlar

***Alqışlar müxtılif cür olur. Razısansa, alqış razılıq əlamətidir. Bu alqışların faydası çoxdur.***

***Əgər qəzəblisənsə, alqış səndə bu qəzəbi yaradan hissi ifadə edir.***

***Əgər tamaşaçıların alqışları sürəkli bir hala gəlirsə, bu sevgini ifadə edir.***

Bir qız bir oğlanın yanağına ovucuyla vurursa, bu hirs əlamətidir, üzünə bir şillə vurursa bu öz ləyaqətinin müdafiəsidir.

Unutma ki, gurultulu və ayaq üstə alqışlar bəzən aldadıcı olur. Bəzi alqışların arxasında gözlənilən bir mübahisə gizlənir. Bəzi alqışların arxasında isə şeytan gizlənir.

### Böhran zamanı

Böhran baş verən zaman günəbaxan kimi, yalnız öz rifahlarını düşünən insanlar peyda olurlar. Onlar yalnız özlərini rifahları ilə maraqlandıran insanlara hörmət edirlər, onların gözlərinə baxırlar. Onlara uyğunlaşaraq böyüyürlər və inkişaf edirlər. Məqsədlərinə çatdıqdan sonra bu barədə xeyirxahlarına hesabat verirlər. Bilmirlər ki, lazım bilsələr onları semiçka kimi çırtlayıb, qabıq kimi üfürəcəklər.

### Şahmat

Bir çox insanlar şahmat oynamağı sevir və bundan böyük zövq alırlar.

***Heyrətamiz bir haldır ki, bu oyun insanda hərbi strategiyanı inkişaf etdirir: piyadalar sıravi əsgərlər kimi məhv olsalar da çantalarında felmarşal çubuğu irəliyə can atırlar. Bu əsgərlər fürsət düşəndə atları və filləri vurub, şahı təhdid edirlər. Qısacası – onlar həm müdafiə olunur, həm də hücuma keçirlər. Düşmən səngərinin başlanğıcına çatdıqda isə ferz və ya başqa bir fiqura çevrilirlər. Şahmat taxtasına nəzər yetirməklə şahın imkan və şansların dəyərləndirə bilərik. Düşünürəm ki, bunlar onda elə də böyük deyil.***

**Tərcümə etdi:**
**İbrahim İlyaslı**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**